Ədəbiyyat qəzeti



# VAHİD ƏZİZ - 75



Hörmətli Vahid Əziz!

Sizi - Azərbaycanın Xalq şairini 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 23 noyabr 1945-ci ildə Ermənistanın Dərələyəz mahalının Əzizbəyov rayonunun Əzizbəyov kəndində qulluqçu ailəsində anadan olmusunuz. Sonralar ailəniz Azərbaycanın Tərtər rayonuna köçdüyündən orta məktəbi orada bitirmiş (1963), əmək fəaliyyətinə Əli Bayramlı şəhərində Şirvanneft trestində başlamısınız (1963-1964).

Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra "Xəbər Mətbuat Agentliyi"ndə müxbir (1971-1976), Bakı şəhər Partiya Komitəsində təbliğat və təşviqat şöbəsində təlimatçı (1976-1982), Azərbaycan KP Mərkəzi Komitəsində təlimatçı, mətbuat bölməsinin müdiri (1982-1989), Azərbaycan Dövlət Mətbuat Komitəsində sədr müavini (1989-1991) vəzifələrində çalışmısınız.

Sonrakı illərdə Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin katibi (1991-1997), Bakı şəhər İcra hakimiyyətinin Reklam və Şəhər tərtibatı Departamentində "Reklamların Azərbaycan dilində yazılışına nəzarət bölməsi"nin müdiri olmusunuz. Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsinin üzvü olmusunuz. Görkəmli rus ədiblərinin erməni-Azərbaycan münasibətlərinə dair yazdıqları əsərlərin yenidən nəşrini təşkil etmisiniz.

"Oğuz eli" ədəbi-publisistik qəzetinin işıq üzü görməsinə ciddi köməyiniz olmuş, Bakıda keçirilən Beynəlxalq-biznes konqresinin təşkilat komitəsi qərargahının rəisi kimi fəaliyyət göstərmiş (1991), "Ergün" firmasını, eyniadlı nəşriyyatı təsis etmisiniz. Burada bazar iqtisadiyyatı ilə sıx bağlı olan sorğu, lüğət kitablarını, müasir Avropa və Amerika iqtisadçılarının əsərlərini kütləvi tirajla nəşr etdirmisiniz.

Bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan ilk şeirinizlə başlamısınız. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edirsiniz. Son illər 200-dən çox publisistik məqalə və müsahibələriniz dərc olunmuşdur. Sözlərinizə bəstələnmiş mahnıların diski buraxılmışdır. "Dözmək olmur" (1997) şeirlər kitabınız rəğbətlə qarşılanmışdır. 40-dan çox mahnınıza musiqi bəstələnmişdir. Azərbaycanın rəsmi nümayəndə heyətinin tərkibində dəfələrlə xarici ölkələrdə olmusunuz. Çoxsaylı kitablarınız işıq üzü görüb.

24 may 2019-cu ildə "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adına layiq görülmüsünüz.

Hörmətli Vahid müəllim!

Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**